https://doi.org/10.59849/2410-5600.2025.1.27

UOT: 930.85

**Nicabət İslamova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: nicabet.1977@mail.ru*

# İLİSUDA YAZILMIŞ ƏLYAZMALARDAN BƏZİLƏRİNƏ QISA BAXIŞ

**Xülasə**

Hər bir ölkənin tarixinin, mədəniyyətinin, incəsənətinin tədqiqində əlyazmaların və tarixi binaların üzərində yazılmış kitabələrin mühüm rolu var. Bu baxımdan Azərbaycan tarixinin araşdırılmasında da əlyazmalar xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın, eləcə də dünya əlyazma xəzinələrində minlərlə belə yazılı abidələr mühafizə olunur. Bu əlyazmalar həmin dövrə işıq tutaraq bizi uzaq keçmişdə baş vermiş hadisələrdən xəbərdar edir. Məhz buna görə də alimlərimiz tərəfindən həmin əlyazmaların tədqiqi elmin qarşısında duran əsas məsələrdən biridir.

***Açar sözlər:*** *İlisu, sultan, əlyazma, ordu, Dağıstan*

## Giriş

*Tarix boyu Azərbaycanın müxtəlif bölgələrində xanlıqlar, sultanlıqlar kimi siyasi qurumlar yaranmış, bir müddət fəaliyyət göstərdikdən sonra tarix səhnəsindən silinib getmişdirlər. Bunlardan biri də İlisu sultanlığıdır. Sultanlıq 300 ilə qədər bir zamanda varlığını sürdürmüşdür. Təbii ki, 300 il az bir müddət deyil. Bu müddət ərzində sultanlıq qonşu xanlıqlar, həmçinin müxtəlif dövlətlər tərəfindən tanınmışdır. İlisu sultanlığı coğrafi mövqe baxımından da region üçün önəmli strateji əhəmiyyətə malik idi. Buna görə də İran və Türkiyə sultanları İlisu sultanlarının nəsli malikanələrinə olan hüquqlarını təsdiq etməyə çalışırdılar. Qarşılığında isə İlisu sultanları həmin ölkələrə müharibələr zamanı hərbi yardımlar göndərirdi.*

*Sultanlıqda nəinki hərb sahəsi, həmçinin elm, incəsənət, toxuculuq dulusçuluq kimi sahələr də inkişaf etmişdir. Burada elmin inkişafı xüsusilə qeyd edilməlidir. Çox təəssüf ki, sovet hakimiyyətinin qurulduğu ilk illərdə burada zamanın şahidi olan əlyazmalar məhv edilmişdir. Lakin onlardan bəziləri günümüzə qədər gəlib çatmışdır. Bu əlyazmalarda sultanlıqda yaşayıb yaratmış alimlər, ərazinin tarixi, sultanların siyasi fəaliyyətləri və sairə haqqında maraqlı məlumatlar vardır.*

İlisu Azərbaycanın ən dilbər güşələrindən biri, Azərbaycan tarixinin şanlı səhifələrinə ev sahibliyi etmiş ulu diyardır. Onun hər daşında, hər qayasında neçə tarix yatır. Bu dağlar, bu dərələr neçə-neçə müharibələrə şahidlik etmişdilər. Böyük Qafqaz sıra dağlarının ətəklərində yerləşən bu kənddən Allah öz səxavətini əsirgəməmişdir. Dağ çaylarının şırıltısı, çəmənliklərində açan çiçəklərinin xoş ətri, göz yaşı kimi dupduru şəlalələri buraya gələnləri ovsunlayır. Bu dağların qoynunda İlisu sultanlığı yaranmış və uzun illər fəaliyyətini davam etdirmişdir. Tarixə "İlisu sultanlığı" adı ilə daxil olmuş bu sultanlıq 300 ilə qədər bir dövrdə mövcud olmuşdur. Sultanlığın sərhədləri şimaldan hazırkı Dağıstan Muxtar Respublikasına qədər, qərbdən Muxaxçay və Qapçay, Car-Balakən camaatlığı, cənubdan Alazan,

şərqdən Şəki xanlığına qədər uzanırdı. Sultanlıq 1844-cü ildə Çar hökuməti tərəfindən rəsmi olaraq ləğv edilmişdir. Bundan sonra onun ərazisi ayrı-ayrı mahallara bölünərək Car Bələkan hərbi dairəsinə tabe edildi. Bu gün balaca bir kənd olan İlisunun tarixi nəinki ölkəmizdə, həmçinin dünyada məşhurdur.

Siyasi vəziyyətdən asılı olaraq İlisu sultanları öz müstəqilliklərini qorumaq üçün müxtəlif dövrlərdə regionda siyasi nüfuzu böyük olan dövlətlərə sığınmalı olmuşlar. Rusiyanın regiona marağının artdığı bir dövrdə İlisu sultanları İrana və Türkiyəyə meyil etmişlər. Onların hakimiyyətlərini təsdiqləyən sənədlər, fərmanlar günümüzə qədər gəlib çatmışdır. Çox təəssüf ki, bu dövrdə baş vermiş hadisələr mənbələrdə öz əksini tapmamışdır. Ona görə də hələ gənc ikən döyüşlərdə şəhid olmuş və Tovlatala qəbiristanlığında dəfn olunmuş İlisu sultanları haqda geniş məlumat əldə etmək, onların hansı döyüşlərdə iştirak edərək şəhid olduqlarını söyləmək çətindir. İlisu sultanlığı müəyyən qədər qoşuna malik olduğundan həm İran şahları, həm də Türkiyə sultanları onu öz tərəflərinə çəkməyə çalışmışdırlar. Şah Səfi 1627-ci ildə Məhəmməd xan Saxurluya onun əcdadları tərəfindən miras buraxılmış hakimiyyətini bir daha təsdiq edərək ona Gürcüstana hücum etməyi tapşırdı. Buna səbəb isə çarın Teymuraza artıq etibar etməməsi və onun cəzalandırlmasının labüdlüyü idi.

Şah Səfinin 1045-ci (1636-cı) il zülqədə tarixli fərmanında deyilir: "Türkiyə sultanı (IV Murad – N.İ.) Frank ilə sülh bağlayıb və Azərbaycana hücum edib, böyük qüvvə ilə İrəvan qalasını tutmaq istəyir. Bu qalanı ona verən üzüqaralıq etdi. Bizim hökmdarlar oranın abadlığına və möhkəmləndirilməsinə çox xərc qoymuşdular. Sultan orada 12000 nəfərlik təcrübəli qoşun qoyub özü geri dönüb. 19 Şəvval şah qoşunlarının hücumu zamanı Murtuza Əli paşa öldü və 500 türk əsir düşsə də, onlara azadlıq verildi. Daha sonra Sultan Mehmed Saxurlunu əmin edirdi ki, bütün xahişlər və təkliflər yerinə yetiriləcək" [4, s.7].

Hicri 18 Rəbiül-əvvəl 1045 (1635)-ci il tarixli fərmanında deyilir: "Sizin bizim saraya göndərdiyiniz xahişiniz alındı. Gələcəkdə də bizim hörmət və səmimiyyətimizə nail olmaq üçün bilin ki, Gürcüstanın idarəsi Gürcü çarı Rüstəm xana tapşırılıb. Siz gərək o ali hakimiyyətə qoyulmuş ilə elə davranasınız ki, o sizdən narazı olmasın. Bütün təkliflərinizi və ehtiyacınızı onun vasitəsi ilə bizə çatdırın" [4, s.8].

İlisu sultanı Əli sultan paşanın oğlu Xəlil sultanın məzar daşındakı kitabəsində bildirilir ki, h. 1150 (1737)-ci illərdə Türk ordusu sıralarında döyüşərək şəhid olmuşdur. O, atasından sonra İlisu sultanı təyin olunmuşdur. 5 il hökmdarlıq etmişdir. Məzarı İlisu Tovlatala qəbiristanındadır. Əli sultan paşanın ikinci oğlu Məhəmməd sultan h.1141 (1757)-ci ildə şəhid olmuşdur. Məzar daşında Məhəmməd sultanın vətəninin azadlığı uğrunda şəhid olmuş, ədalətli, müsəlmanların bayrağını ucaldan, kasıblara əl tutan bir hökmdar olduğu qeyd edilmişdir. Onun fəaliyyəti, hansı döyüşdə həlak olması haqqda məlumata malik deyilik. [4, s.8].

İlisu sultanlığını dünyada tanıdan təkcə siyasi tarixi, dövlət xadimləri, Osmanlı ordusuna qədər gedib çatmış hərbçiləri deyil, xəttatları, katibləri də olmuşdur. Dünyann bir çox arxivlərində İlisu sultanlığında yazılmş əlyazma əsərlər mühafizə olunur. Həmçinin AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində İlisu sultanlığında yaşayıb yaratmış alimlərin əsərləri mühafizə olunaraq öz tədqiqini gözləyir. Bu məqalədə belə əlyazma nüsxələrindən bəzilərinə nəzər salmaq istəyirəm.

"Risalə fi təqlid li şərh təriqət Məhəmmədyə" adlı əsər Əbdülqəni bin əl-Hac Məhəmməd Əfəndi ən-Nuxəvi kolleksiyasında görkəmli alimimiz professor Kamandar Şərifli tərəfindən aşkar edilmişdir. Əsər B-4309 şifrəsi altında mühafizə olunur. Əlyazma məcmuənin 11b-14b vərəqlərini əhatə edir. Risalə qara mürəkkəblə səliqəli riqi xətti ilə yazılıb. Kağızı mavi rəngli Avropa istehsalıdır. Bəzi söz və cümlələr nisbətən iri xətlə tünd-yaşıl rəngli mürəkkəblə yazılıb. Mətnin haşiyələrində və sətirlərin arasında qara mürəkkəblə, müxtəlif istiqamətlərdə kiçik şiriftlərlə izahlar var. Əlyazma Şərq üsulu ilə şifrələnib.

Əlyazmanın katibi Qaxi bin Xan Məhəmməd əl-Qubəridir. Əsərin köçürülmə tarixi h.1219/m.1804-dür. Həcmi 121 səhifədir.

Ümumiyyətlə, Əbdülqəni bin əl-Hacc Məhəmməd Əfəndi ən-Nuxəvi kolleksiyasında İlisu sultanlığının siyasi, mədəni və elmi tarixi ilə bağlı çox sayda maraqlı əlyazma və çap kitablar vardır. Bu kitabların aşkara çıxarılmasında və tədqiq olunmasında görkəmli alimimiz Kamandar Şəriflinin çox böyük rolu olmuşdr.



Digər bir əlyazması "Risalə fi elmi əl-əhval əl-ulum" adlanır. Əsər B-2342 şifrəsi ilə mühafizə edilir. Əlyazmasında ilahiyyat elimindən bəhs edilir. Qara mürəkkəblə süls qarışıq nəsx xətti ilə köçürülmüşdür. Mətn əlyazma məcmuəsinin 279b-297b vərəqlərini əhatə edir. Mətn sarımtıl rəngli içində "Фабрика Демидова №6" sözləri basılmış möhürlü Rusiya istehsalı kağıza köçürülmüşdür. Mətnin başlıqları qırmızı mürəkkəblə yazılmışdır. Əlyazma Şərq üsulu ilə şifrələnib. Qəhvəyi rəngdə dəri çəkilmiş karton ilə cildlənmişdir. Qapağın iç tərəfi parçadandır. Üzərinə çiçək və buta şəkilləri çəkilmişdir. Əlyazmanın katibi Məhami ibn Harun əl-İlisuyidir. Tarixi h. 1291/m.1874-dür. Əlyazmanın həcmi 287 səhifədir.



Üçüncü əlyazma "Risalə fi elmi əl-bəyan" adlanır. Bu əlyazma B-4309 şifrəsi altında mühafizə olunur. Bəlağət elmindən bəhs edən əsər məcmuənin 16a-20a vərəqlərini əhatə edir. Əsər Avropa istehsalı olan sarımtıl rəngli qalın kağızlara qara mürəkkəblə riqi xətti ilə köçürülmüşdür. Mətnin haşiyələrində `müxtəlif istiqamətdə yazılmış şərhlər və izahlar vardır. Bəzi sətirlərin üzərində narın xətlə qeydlər aparılıb. Müəyyən kəlmələr iri şiriftlə yazılıb. Əlyazmada istifadə edilmiş şərti işarələr qara və qəhvəyi rəngli mürəkkəblə yazılıb. Əlyazma Şərq üslubu ilə səhifələnib. Bərpa zamanı kartona çəkilmiş yaşıl rəngli dəriəvəzi ilə cildlənmişdir. Əlyazmanın katibi Əl-Qaxi Şaban bin İsmaildir. Həcmi 121 vərəqdir.

Bir başqa əlyazma "Dağıstan tarixi" adlanır. Bu əlyazma B-1835/13631 şifrəsi ilə mühafizə olunur. Əlyazmada Car, İlisu, Balakən, Qax haqqında tarixi məlumat verilir. Əlyazmanın həcmi 23 vərəqi əhatə edir.

Bütün bu əlyazmalar təsvir olunsa da, geniş tədqiqata cəlb olunmamışdır. Halbuki bu əlyazma nüsxələri ayrılıqda tədqiq olunarsa, İlisu sultanlığı, onun siyasi tarixi, burada mədəniyyətin və elmin inkişafı, xarici əlaqələri haqqında maraqlı məlumatlar əldə etmək olar.

## Nəticə

*Tarixə İlisu sultanlığı adı ilə daxil olmuş sultanlıq 300 ilə yaxın bir dövrü əhatə edərək tarix səhnəsində özünəməxsus iz qoya bilmişdir. Sultanlıq 36 dəfə Osmanlı və İran dövlətləri tərəfindən fərmanlarla təsdiq olunmuşdur. İlisu sultanlığının istər siyasi, istər mədəni, istərsə də elmi tarixinin araşdırılmasında dövrünün əlyazmalarının çox mühüm rolu vardır. Bu əlyazmalar nəinki AMEA Əlyazmalar İnstitutunun xəzinəsində, həmçinin Dağıstan, Osmanlı və hətta İran arxivlərində mühafizə olunur. Bu əlyazmaları tədqiq edərək çox maraqlı və qiymətli məlumatlar əldə edə bilərik.*

**Ədəbiyyat siyahısı:**

1. Əl risalətul-xalidiyyətul mucəddidiyyə. Müstənsix: Mamay Əfəndi İlisuvi. Zaqatala diyarşünaslıq muzeyi. B.3142-4767.
2. Kamran Abdullayev. Qafqazda ərəbcə məktublar ənənəsi nümunələri. (XIX-XX əsrlər). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019, 264 səh.
3. Nemətova, Məşədixanım, Azərbaycanın Epiqrafik Abidələri, (Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1963).
4. Летифова, Елвира. Илисуйское Султанство (Историко-Етнографическое Исследование), Баку: Ученого Совета Национальной Академии Наук Азербайджана, 2000. 359 s.

**Nijabat Islamova**

## A brief overview of some of the manuscripts written of Ilisu

***Summary***

Manuscripts and inscriptions written on historical buildings play an important role in the study of the history, culture, art of each country.

In this regard, manuscripts also play a special role in the study of the history of Azerbaijan.

Such manuscripts are preserved not only in the archives of Azerbaijan but also many countries of the world.

These manuscripts inform us of the events that took place at that time.

Therefore, the study of these manuscripts by our scientists is one of the main issues facing science.

***Keywords:****Ilisu, The Sultans, army, Dagestan*

*Filologiya üzrə elmlər doktoru, professor*
***Kamandar Şərifov** tərəfindən çapa tövsiyə olunmuşdur.*